# Ön söz

44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarının uzun müddət davam edən işğalına son qoyulmuşdur. Hal-hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin birbaşa rəhbərliyi ilə işğaldan azad edilmiş bütün ərazilərin dirçəlişi prosesi həyata keçirilir.

Azərbaycan ərazilərinin 20 faizinin 30 ilə yaxın müddətdə işğal altında qalması həmin ərazilərdəki tarixi və mədəni irsimiz üçün də fəlakətli fəsadlara səbəb olmuşdur. 1994-cü ildə atəşkəsin elan edilməsindən sonrakı 26 illik dövrün təhlili göstərir ki, Ermənistan tərəfindən Azərbaycan abidələrinin məhv edilməsi hərbi əməliyyatlardan sonrakı dövrdə daha geniş miqyasda aparılmışdır.

Ermənistan Azərbaycana qarşı qanunsuz və əsassız ərazi iddialarını reallaşdırmaq məqsədilə 1991-ci ilin sonundan tam miqyaslı müharibəyə başlamış, nəticədə Azərbaycanın təbii sərvətlər və mədəni irsi ilə zəngin olan ərazisinin əhəmiyyətli bir hissəsi işğal edilmişdir. Müharibə nəticəsində on minlərlə insan həyatını itirmiş, şəhərlər, qəsəbələr və kəndlər dağıdılmış, erməni vandalizminə məruz qalmışdır. Bütün işğal olunmuş ərazilərdə 700 mindən çox azərbaycanlı etnik təmizlənməyə məruz qalmış, regionun infrastrukturuna ciddi ziyan vurulmuşdur.

Ermənistan tərəfindən 700-dən çox tarixi abidə, 22 muzey, o cümlədən 100 min muzey eksponatı, 927 kitabxana, 58 arxeoloji yaşayış məskəni, 26 qala və qala divarı, habelə digər mədəni irs abidələri mənimsənilmiş, məhv və talan edilmişdir.

İşğal nəticəsində bu mirasın məqsədyönlü şəkildə məhv edilməsi siyasəti həm Azərbaycan mədəniyyətinə, həm də dünya sivilizasiyasına bərpası olmayan zərbə vurmuşdur. Ermənistan işğal olunmuş ərazilərdəki yaşayış məntəqələrinin mədəni görkəmini məqsədyönlü şəkildə dəyişdirməklə, abidələri məhv etməklə, memarlıq xüsusiyyətlərini dəyişməklə və arxeoloji qazıntılar aparmaqla bunların Azərbaycan mənşəli olduğunu göstərən əlamətlərini aradan qaldırmaq məqsədi güdmüşdür.

Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını almaq məqsədilə 27 sentyabr 2020-ci ildə bütün cəbhə boyu əks-hücuma keçən Azərbaycan Ordusu 1990-cı illərin əvvəllərində baş verən Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən işğal edilmiş əraziləri işğaldan azad etməyə başlamışdır. 44 gün davam edən və "Vətən müharibəsi" olaraq adlandırılan müharibə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun gücünü göstərərək Azərbaycanın qələbəsi ilə başa çatmışdır. Azərbaycanın mədəniyyət paytaxtı hesab edilən Şuşa şəhəri Şanlı Azərbaycan Ordusu tərəfindən azad edildikdən dərhal sonra, 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan üçtərəfli Bəyanat nəticəsində 1 dekabr tarixi etibarilə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir.

"Zəfərdən bu günə" informasiya bülleteni işğaldan azad edilmiş ərazilərimizdə gedən dirçəliş prosesi ilə bağlı rəsmi xronikanı özündə əks etdirir.

Azərbaycan, rus, ingilis və ispan dili olmaqla 4 dildə nəşr edilən bülletenin hər sayı 6 aylıq dövrü əhatə edir və ildə 2 dəfə - yanvar və iyul aylarında işıq üzü görür.



“Bərpa işləri azad edilmiş bütün torpaqlarda aparılacaqdır. Böyük qayıdış başlayır, bütün işlərə start verilmişdir. Düşməni cəmi 44 gün ərzində torpaqlarımızdan qovduğumuz kimi, tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik. Çünki bu torpaqların sahibləri bizik- Azərbaycan xalqıdır”.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

**11**
**YANVAR**
**2021**

## Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə yanvarın 11-də Moskva şəhərində işgüzar səfərdə olmuşdur. Səfər zamanı Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilmişdir.

Görüş zamanı Vladimir Putin 2020-ci il noyabrın 10-da Dağlıq Qarabağa dair imzalanmış üçtərəfli Bəyanatın reallaşdırılmasının gedişatını, mövcud problemlərin aradan qaldırılmasına və regionda dinc həyatın qaydaya salınmasına dair sonrakı addımları birlikdə müzakirə etmək təklifini qəbul etdiklərinə görə qonaqlara minnətdarlığını bildirmiş, Rusiya tərəfinin qan tökülməsini dayandırmağa, vəziyyəti sabitləşdirməyə kömək etməyə və davamlı atəşkəsə nail olmağa yönəlmiş fəal vasitəçilik səylərini müsbət qəbul etdiklərinə görə təşəkkür etmişdir.

Üçtərəfli görüşdən sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan mətbuata bəyanatla çıxış etmişdirlər. Ölkə rəhbərləri 10 noyabr tarixli üçtərəfli Bəyanatın uğurla həyata keçirildiyini və Rusiya sülhməramlı missiyasının öz işini səmərəli şəkildə yerinə yetirdiyini bildirmiş, gələcəkdə birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməli olduqlarını vurğulamışdırlar.

Üçtərəfli görüşün son dərəcə vacib və faydalı olduğunu hesab edən dövlət başçıları, bölgədəki vəziyyətin inkişafı, iqtisadi əlaqələrin qurulması, infrastruktur layihələrinin inkişafı üzrə konkret addımların atılması, regionda möhkəm sülhün, təhlükəsizliyin və davamlı sosial-iqtisadi inkişafın təmin olunması məqsədi ilə üç hökumətin baş nazirləri müavinlərinin rəhbərlik edəcəyi işçi qrupu yaradılacağını qeyd etmişdirlər.





11
YANVAR
2021

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş

Yanvarın 11-də Moskva şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş keçirilmişdir.

Görüş zamanı imzalanmış yeni Bəyanat, Qarabağ və bütövlükdə Cənubi Qafqazda vəziyyətin nizamlanması və Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişaf perspektivləri istiqamətində müzakirələr aparılmışdır.







**14**
**YANVAR**
**2021**

## Füzuli-Şuşa yolunun təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun təməlini qoymuşdur.

Füzuli-Şuşa yolunun yeni işlənmiş layihəsinə körpü və tunellərin inşası daxildir. Çətin relyefə malik olan ərazilərdə dolama yolların yerinə körpü və tunellərin tikintisi nəzərdə tutulmuşdur. Yeni yol Füzuli hava limanı ilə əlaqələndiriləcəkdir və bu yoldan İsa bulağına yeni yol çəkiləcəkdir.





**14**
**YANVAR**
**2021**

## Füzuli hava limanının təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 14-də Füzuli rayonunda Füzuli Beynəlxalq Hava Limanının təməlini qoydular.

Uçuş-enmə zolağının uzunluğu 2800 metr olacaq hava limanı beynəlxalq standartlara uyğun infrastrukturla təchiz ediləcəkdir. Burada təyyarələrin qəbulu və yola salınması, sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılacaqdır.







**14**
**YANVAR**
**2021**

## Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstlərinin tarixi yerlərinə bərpa edilməsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva yanvarın 14-də Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərində səfərdə olmuşdurlar.

Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılmış, ev muzeyləri qarət edilmişdir. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün Şuşadakı büstləri də var idi. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaqdır. Dövlətimizin başçısının bu sözləri artıq reallığa çevrilmişdir.

Səfər zamanı Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulmuşdur.





**14**
**FEVRAL**
**2021**

## Horadiz-Ağbənd dəmir yolu xəttinin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfərləri zamanı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlqoyma mərasimində iştirak etmişdirlər.

Ümumi uzunluğu 100 kilometr olan Horadiz-Ağbənd dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və daha da önəmlisi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcəkdir.

Səfər zamanı dövlətimizin başçısı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymuşdur.





14
FEVRAL
2021

## "Güləbird" Su Elektrik Stansiyasının açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə "Güləbird" Su Elektrik Stansiyasının açılışında iştirak etmişdir.

Erməni qəsbkarlar işğal dövründə xislətlərinə uyğun olaraq digər yerlərdə olduğu kimi, bu stansiyanı da darmadağın etmişdirlər. Dövlət başçısının tapşırığı ilə qısa müddət ərzində istismara verilən bu stansiya işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yaradılması və nəzərdə tutulan digər işlərin həyata keçirilməsi baxımından böyük önəm daşıyır.

"Güləbird" Su Elektrik Stansiyasının istifadəyə verilməsi tarixi və əlamətdar hadisədir. Bu, işğaldan azad olunan rayonlarda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihəsidir. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaqdır. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcəkdir.

Açılış mərasiminin sonunda Prezident İlham Əliyev "Güləbird" Su Elektrik Stansiyasını işə salmışdır.



**14**
**FEVRAL**
**2021**

## Bəsitçay Dövlət Təbiət Qoruğunun bərpası

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Zəngilan rayonu ərazisindəki Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisində olmuşdurlar.

Erməni qəsbkarları işğal altında saxladıqları dövrdə digər ərazilərdə olduğu kimi, Bəsitçay qoruğunda da ekoloji terror törətmişdirlər. Mənfur düşmən qoruğun meşəlik ərazisinin demək olar ki, yarısını məhv etmiş, ağacların kökünü, oduncağını yandırmışdır. Burada illərlə formalaşmış təbii ekosistemin tarazlığına erməni vandalizmi nəticəsində ciddi zərbə vurulmuşdur.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bəsitçay qoruğunda çinar ağacları əkdilər və Bəsitçaya balıq buraxdılar.

Prezident İlham Əliyev: "Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları əkdik. Bəsitçay qoruğu 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə yaradılmışdır. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bu, nadir çinar ağacları meşəsi idi. İşğaldan sonra mənfur düşmən çinarların böyük hissəsini kəsmiş, doğramış, talamış və yandırmışdır. Bu, erməni vandalizminin növbəti əlamətidir. Bu gün Bəsitçay təbiət qoruğunun bərpasına start verildi. Biz bu qoruğu bərpa edəcəyik. Əlbəttə ki, burada kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi. Ancaq hər halda öz borcumuzu yerinə yetirdik. Eyni zamanda, Bəsitçaya balıqlar da buraxdıq. Bəsitçay da çox gözəl çaydır. Ümumiyyətlə, bu bölgə çaylarla zəngindir. Tərtərçay, Xaçınçay, Bəsitçay, Bazarçay, Həkəri çayı və digər çaylar bundan sonra Azərbaycan xalqına xidmət edəcəkdir. Mənfur düşmən işğal dövründə Tərtərçayın da suyunun qabağını kəsmişdir və bir neçə rayonumuzda yüz min hektardan çox torpaq susuz qalmışdır. Bizə qarşı ekoloji terror törədilmişdir".





**15**
**MART**
**2021**

## Füzuli-Hadrut avtomobil yolunun təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 15-də Füzuli və Xocavənd rayonlarına səfərləri zamanı Füzuli-Hadrut avtomobil yolunun təməlini qoymuşdurlar.

Füzuli-Hadrut avtomobil yolu başlanğıcını Zəfər yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan bu yol 4 hərəkət zolaqlı olacaqdır. Yol boyunca avtomobil körpüləri inşa ediləcəkdir.







**15**
**MART**
**2021**

## Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlini qoymuşdur.

Bu yol başlanğıcını Hadrut yaşayış məntəqəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birləşir. Uzunluğu 43 kilometrdir. Dörd hərəkət zolaqlı bu yol boyunca avtomobil körpüləri tikiləcəkdir.





16
MART
2021

## Molla Pənah Vaqifin muzey-maqbərə kompleksinə baxış

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə gəlmişdirlər.

Prezident İlham Əliyev: “Mən bu şəkilləri arxivdən tapmışdım. Vaqif poeziya günləri keçirilir, 1982-ci ilin yay ayında. Məqbərənin önündə ulu öndər Heydər Əliyev. İnsanlar da bax, burada, bu tədbirdə iştirak edirdilər. Keçən dəfə burada olarkən bu yerə fikir verdim və dedim ki, arxivdən şəkillər tapılsın, burada nə olub və bu şəkil tapıldı. Görürsünüz, Vaqifin təsviri bax, bu divarda olmuşdur. Mənfur düşmən bunu da sökdü, bu mərməri də sökdü. Bu da qəbirin üstündə sinə daşı idi. Vandal erməni bunu da sökmüşdür. Bunu bərpa edəcəyik. Ulu Öndərin o vaxt Şuşaya səfəri ilə əlaqədar daha bir neçə şəkil tapmışam arxivdən, mən də buradayam. Bu da Cıdır düzündə. Bunu bir dəfə göstərmişdim, Natəvan bulağının önündə. Bir şəkil də var, onu da göstərməliyəm. Burada Vaqifin büstü də var idi. Keçən dəfə Şuşada olarkən mən göstərdim ki, ermənilər büstü söküb dükan tikmişdirlər. Bax, budur. Vaqifin büstü, Ulu Öndər də baxır. Bu büstü də bərpa edəcəyik”.



**16 MART 2021**

## Pənahəli xanın sarayını ziyarət

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da Pənahəli xanın sarayının qalıqlarına baxış keçirmişdirlər. Bu tikili Şuşa şəhərinin tarixi mərkəzində yerləşir və Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi saray idi. Erməni vandalları işğal zamanı bu tarixi binanı da dağıtmışdırlar.



**16 MART 2021**

## Molla Pənah Vaqifin büstünün bərpası

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da Molla Pənah Vaqifin büstünün qoyulacağı əraziyə gəlmişdirlər. Molla Pənah Vaqifin muzey-məqbərə kompleksində olduğu kimi Molla Pənah Vaqifin büstünün bərpası layihəsi də Heydər Əliyev Fondu tərəfindən icra olunacaqdır.



16 MART 2021

## Karvansaray tarix-memarlıq kompleksinə baxış

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da Şuşa şəhərinin mərkəzi meydanında yerləşən, XIX əsrə aid Karvansaray tarix-memarlıq kompleksinə baxış keçirmişdirlər.

Erməni vandalları işğal zamanı Karvansaray tarix-memarlıq kompleksini də dağıtmışdırlar.



16 MART 2021

## Şuşa Dövlət Rəsm Qalereyasının binasının bərpa planı

Şuşa şəhərində erməni vəhşiliyi ilə üz-üzə qalan tikililərdən biri də 1982-ci ildə yaradılmış və 1992-ci ilin may ayında şəhərin işğalına qədər fəaliyyət göstərmiş Şuşa Dövlət Rəsm Qalereyasının binasıdır. Martın 16-da binaya baxış zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirmişdir ki, bura Şuşa şəhərinin rəsm qalereyası olmuşdur. Azərbaycan hökuməti burada qalereya təşkil etmişdir. İşğal zamanı düşmənlər buradan öz məqsədləri üçün istifadə etmişdirlər. Bu bina tamamilə yenidən bərpa ediləcək və yenə də rəsm qalereyası kimi fəaliyyət göstərəcəkdir.



**16**
**MART**
**2021**

## Şuşa Xalça Muzeyində görüləcək işlərlə tanışlıq

Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan və işğal zamanı ciddi ziyan görən tarixi binalardan biri də Şuşa Xalça Muzeyidir. Martın 16-da Şuşaya səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa Xalça Muzeyini də ziyarət etmiş və görülən bərpa işləri ilə tanış olmuşdurlar.




**16**
**MART**
**2021**

## "Qarabağ" mehmanxanasının təmir-bərpa işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da "Qarabağ" mehmanxanasında aparılacaq təmir-bərpa işləri ilə tanış olmuşdurlar. Mehmanxana ötən əsrin 80-ci illərinin əvvəllərində inşa edilmiş, işğal zamanı baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşmüşdür. Burada görüləcək işlər nəticəsində mehmanxana müasir səviyyəyə çatdırılacaq və Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün bütün şərait yaradılacaqdır.



16
MART
2021

## “Park” oteldə yenidənqurma işləri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da Şuşada “Park” otelin yerləşəcəyi binaya baxış keçirmişdirlər. Yenidənqurma işlərindən sonra “Park” otel qonaqlarını müasir səviyyədə qarşılaya biləcəkdir.



20
MART
2021

## Cıdır düzündə ilk bayram tonqalı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva mart ayının 20-də torpaqlarımız erməni işğalından azad edildikdən sonra Şuşada Cıdır düzündə ilk dəfə bayram tonqalı alovlandırmışdırlar. Xalqa müraciət edən dövlətimizin başçısı bütün Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulamış, Novruz bayramı münasibətilə hər kəsi ürəkdən təbrik etmişdir.







**12**
**APREL**
**2021**

## Hərbi Qənimətlər Parkının açılışı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak etmişdir.

Azərbaycanın Vətən müharibəsində Qələbəsinin rəsmiləşməsindən bir gün sonra – noyabrın 11-də Müzəffər Ali Baş Komandan hərbçilərlə görüşündə düşmənin qənimət götürülmüş və məhv edilmiş texnikasının nümayişi üçün planlarının olduğunu demişdir. Dekabrın 10-da Zəfər paradında həmin texnikaların bir qismi nümayiş etdirilmiş və Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkının salınması haqqında təşəbbüs irəli sürmüşdür. Çox qısa zamanda görülən genişmiqyaslı işlər artıq yekunlaşmış, açıq səma altında nadir park salınmışdır.

Açılış zamanı Prezident İlham Əliyevə Hərbi Qənimətlər Parkının ilk ziyarət bileti təqdim edilmişdir.






**13**
**APREL**
**2021**

## "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfrans

ADA Universitetində "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfrans keçirilmişdir. Aprelin 13-də konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edərək Birinci Qarabağ müharibəsi və 30 illik işğal zamanı ermənilərin törətdikləri vəhşiliklər haqqında müfəssəl məlumat vermişdir.

Tədbir iştirakçıları Prezident İlham Əliyevlə görüşdən öncə, konfransın ikinci günü Ağdama səfər edərək oradakı dağıntılar və Ermənistanın işğalının qorxunc nəticələri ilə tanış olmuşdurlar.



**26 APREL 2021**

## Cəbrayıl rayonunda Dövlət  Sərhəd Xidmətinin hərbi hissəsinin açılışı

Cəbrayıl rayonunda 26 aprel tarixində Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışı olmuşdur. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva iştirak etmişdirlər.



**26 APREL 2021**

## “Ağıllı kənd” layihəsinin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 26 aprel tarixində Zəngilana səfəri zamanı Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci “Ağıllı kənd” layihəsinin təməlini qoymuşdur.



26
APREL
2021

## Zəngilanda Beynəlxalq Hava Limanının təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 26 aprel tarixində Zəngilanda Beynəlxalq Hava Limanının təməlini qoymuşdur. Bu hava limanı bölgənin inkişafında mühüm rol oynayacaqdır. Hava limanının uçuş-enmə zolağı üç kilometrə bərabər olacaq və bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etməyə qadir olacaqdır.



26
APREL
2021

## Zəngilan-Horadiz avtomobil yolunun təməl qoyulması

İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə bir neçə yol layihəsinin icrasına başlanılmış və hal-hazırda uğurla davam etdirilir. Bu layihələr işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaqdır. Bu baxımdan aprelin 26-da Zəngilana səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təməlini qoyduğu Zəngilan-Horadiz avtomobil yolu da strateji əhəmiyyəti ilə seçilir. Yolun ümumi uzunluğu 124 kilometrdir və 6 zolaqdan ibarətdir.





**26**
**APREL**
**2021**

## Zəngilan məscidində bərpa-quruculuq işləri

İşğaldan azad edilən ərazilərimizdə olan dini abidələrin, məscidlərin bərpası işləri və yeni məscidlərin tikilməsi sürətlə davam etdirilir. Bu tarixi-dini abidələrdən biri də Zəngilan məscididir.

Ermənistanın torpaqlarımızı işğal altında saxladığı otuz il ərzində digər ərazilərimizdə olduğu kimi, Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalmış, dağıdılmış, təhqir edilmişdir. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən də tövlə kimi istifadə olunmuşdur.

Zəngilana səfərləri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən Zəngilan məscidini ziyarət etmiş, üzərində "Zəngilan məscidinin təməli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 26 aprel 2021-ci il tarixində qoyulmuşdur" sözləri yazılmış xatirə daşını məscidin divarına hörmüşdürlər.





**12**
**MAY**
**2021**

## “Şuşa” yarımstansiyasının açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mayın 12-də Şuşada səfərdə olduqları zaman 110/35/10 kilovoltluq “Şuşa” yarımstansiyasının açılışında iştirak etmişdirlər.

Şuşa şəhərinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, şəhərin etibarlı, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məqsədilə ötən ilin dekabrında “Şuşa” yarımstansiyasının və Füzuli rayonunun “Şükürbəyli” yarımstansiyasından başlayaraq 75 kilometr məsafədə 110 kilovoltluq “Şükürbəyli-Şuşa” hava elektrik verilişi xəttinin tikintisinə başlanılmışdır. Yarımstansiya məsafədən idarə olunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulmaqla tam rəqəmsallaşdırılmışdır. Burada perspektiv inkişaf da nəzərə alınmışdır. Yarımstansiya və elektrik verilişi xəttinin tikintisi çətin coğrafi şəraitdə aparılmasına baxmayaraq, ən qısa zaman ərzində yekunlaşmışdır. Füzulidəki “Şükürbəyli” yarımstansiyasından Şuşaya 110 kilovoltluq ikidövrəli elektrik verilişi xətti çəkilişi fasiləsiz, növbəlilik prinsipi ilə 73 günə icra olunub ki, bu da nəinki Azərbaycan energetikası, regionun energetika tarixində rekorddur.

Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərin “Yaşıl enerji” zonasına çevrilməsi ilə bağlı qarşıya qoyduğu tələblərə uyğun olaraq, Suqovuşandakı 2 kiçik su elektrik stansiyasında yenidənqurma, təmir və bərpa işləri yekunlaşmışdır.







**12**
**MAY**
**2021**

## “Xarıbülbül” otelinin açılışı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində “Xarıbülbül” otelinin yenidənqurmadan sonra açılışında iştirak etmişdirlər. Dövlətimizin başçısı oteldə yaradılan şəraitlə tanış olmuşdur.

“Xarıbülbül” otelində ümumilikdə 49 otaq vardır. Onların hamısı qonaqların qalması və rahat istirahət etməsi üçün bütün zəruri infrastrukturla təchiz olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada “Xarıbülbül” otelinin nəzdindəki 48 mənzilli korpusda və kotteclərdə yaradılan şəraitlə tanış olmuşdurlar.



12
MAY
2021

## Şuşada Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada görülən bərpa işləri

Mayın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada olmuşdurlar.

Dövlətimizin başçısına və birinci xanıma görülən bərpa işləri ilə bağlı məlumat verilmiş, qeyd edilmişdir ki, burada səmərəli fəaliyyət üçün hərtərəfli şərait yaradılacaq və inzibati bina ən müasir səviyyədə yenidən qurulacaqdır.




12
MAY
2021

## Şuşada yeni məscidin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva may ayının 12-də Azərbaycanının mədəniyyət paytaxtı Şuşa şəhərində yeni məscidin təməlqoyma tədbirində iştirak etmişdirlər.

Qədim Şuşada təməli qoyulan məscid dini ocaq və modern memarlıq nümunəsi kimi göz oxşayacaqdır. İki minarəli, mozaika ilə bəzədiləcək gümbəzi olan məscidin layihələndirilməsi azərbaycanlı və italyan memarlarla birgə həyata keçirilmişdir. Məscidin xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcəkdir. Bu memarlıq elementi Şuşanın firavan və uğurlu gələcəyinə əminliyi, keçmişlə bu gün arasındakı əlaqəni təcəssüm etdirəcəkdir.

Şuşada yeni məscidin təməlini qoyan Prezident İlham Əliyev bildirmişdir: “Məscidin tikintisi ilə bağlı qərarı mən çoxdan vermişdim. Şuşa şəhəri işğalçılardan azad olunduqdan sonra artıq bu məscidin memarlığı barədə düşünməyə başlamışdım. Şuşa şəhərində vaxtilə 17 məscid olub və mənfur düşmən onların hamısını dağıtmışdır. Üç məscid yarıdağıdılmış vəziyyətdə idi – Yuxarı və Aşağı Gövhər Ağa və Saatlı məscidləri. Onların da təmiri ilə bağlı göstəriş verilmişdir. Yuxarı Gövhər Ağa məscidi artıq təmirdən çıxmışdır. Nəzərə alsaq ki, Şuşa memarlığının öz xüsusiyyətləri vardır və Şuşada vaxtilə inşa edilmiş məscidlər bir üslubda tikilmişdir. Ona görə fikirləşirdim ki, yeni tikiləcək məscidin memarlığı necə olmalıdır”.

8 rəqəmini əks etdirən məscidin memarlıq üslubu rəmzi xarakter daşıyır və Şuşanın işğaldan azad edildiyi və artıq rəsmi olaraq Azərbaycan tarixinə Zəfər Günü olaraq düşən 8 noyabr tarixini özündə təcəssüm etdirəcəkdir. Məscidin iki minarəsi isə Şuşa və Qarabağın tam işğaldan azad edildiyi noyabr ayını özündə ehtiva edən 11 rəqəmini əks etdirəcəkdir.

Məscidin Şuşa şəhərinin yuxarı hissəsində inşa ediləcəyini bildirən ölkə prezidenti qeyd etdi: “Məscidin daxili dizaynı ilə bağlı təkliflər hələ tam hazır deyildir. Ancaq konseptual olaraq məscidin memarlığı 8 noyabr gününü əks etdirəcəkdir. Həm yuxarıdan baxanda, həm də aşağıdan baxanda 8 rəqəmini görmək mümkün olacaqdır. Məscidin yeri də təsadüfən seçilməmişdir. Bu, Şuşa şəhərinin yuxarı hissəsidir və burada ucaldılacaq məscid şəhərə bir dominant kimi hakim olacaqdır. Belə də olmalıdır. Çünki Şuşa bizim qədim şəhərimizdir, Azərbaycan şəhəridir, azərbaycanlılar tərəfindən salınmışdır. Azərbaycanlılar həmişə burada yaşamışdırlar. Sadəcə olaraq, işğal dövründə Azərbaycan əhalisi zorla buradan çıxarılmışdır. Biz Şuşaya qayıtmışıq, əbədi qayıtmışıq! Şəhərə hakim olan bina məscid binası olmalıdır və bu bina şəhərin yuxarı hissəsində yerləşməlidir”.

Ölkə prezidentinin sözlərinə görə məscidin təməlqoyma günü də təsadüfən seçilməmişdir. Fürsətdən istifadə edərək, bütün Azərbaycan xalqını mübarək Ramazan bayramı münasibətilə təbrik edən Prezident İlham Əliyev, məhz Ramazan bayramı ərəfəsində qədim Şuşa şəhərində yeni məscidin təməlqoyma mərasiminin keçirilməsinin böyük tarixi və rəmzi xarakter daşıdığını bildirmişdir.





12
MAY
2021

## Şuşada Xan qızı Natəvanın sarayına baxış keçirilməsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla və Arzu Əliyevalar mayın 12-də Şuşada Xan qızı Natəvanın sarayının qarşısındakı əraziyə baxış keçirmişdirlər.

Şuşa şəhərində Xan qızı Natəvanın evi işğal dövründə dağıdılmışdır. Azərbaycanda yaradılan ilk uşaq musiqi məktəbi olan Şuşa Musiqi Məktəbi Xan qızı Natəvanın evində fəaliyyətə başlamışdır. XVIII əsrə aid tarix-memarlıq abidəsi erməni vəhşiliyinin, vandalizminin qurbanı olmuşdur.

İşğal zamanı binaya dəyən ziyanın qiymətləndirilməsinə artıq başlanılmışdır. Bu prosesdən sonra burada bərpa işlərinə start veriləcəkdir.





**12 MAY 2021**

## “Xan qızı” bulağının bərpa işləri

Mayın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada bərpa-quruculuq işləri tamamlanmış olan “Xan qızı” bulağında olmuşdurlar.

Ailə üzvləri ilə birlikdə bulağın suyundan içən Prezident İlham Əliyev deyib: “Natəvan bulağından yenə su gəlir. Natəvan bulağını bərpa etmişik. Keçən dəfə yanvar ayında Şuşada olarkən demişdim ki, Natəvan bulağını bərpa edəcəyik. Yenə də bulaq Şuşa sakinlərinin, qonaqların sərəncamına veriləcəkdir. Mənfur düşmən bu bulağı qurutmuşdu, bütün bulaqları qurutmuşdu. Bu da onu göstərir ki, Şuşa həmişə ermənilər üçün yad şəhər olmuşdur. İndi isə Şuşa dirçəlir və Şuşanın rəmzlərindən biri olan “Xan qızı” bulağı bərpa edililmişdir. Bu gün bu bulaqdan su içmişəm”.



12
MAY
2021

## Şuşa Yaradıcılıq Mərkəzinin yerləşəcəyi binadakı bərpa-quruculuq işləri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mayın 12-də Şuşa Yaradıcılıq Mərkəzinin yerləşəcəyi binadakı bərpa-quruculuq işləri ilə tanış olmuşdurlar.

Dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya mərkəzdə görüləcək işlər barədə məlumat verilmiş və bildirilmişdir ki, XVIII əsrə aid ölkə əhəmiyyətli memarlıq abidəsində Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşmişdir.



12
MAY
2021

## Şuşa Rəsm Qalereyasında görülən işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mayın 12-də Şuşa Rəsm Qalereyasında görülən işlərlə tanış olmuşdurlar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya qalereyada aparılan işlər barədə məlumat verilmişdir.

Binada qaytarılmış Qarabağ xalçalarının sərgisi, “Qarabağ işğaldan əvvəl və sonra”, “Azərbaycan rəssamlarının motivlərində Qarabağ” adlı sərgilərin keçirilməsi nəzərdə tutulur.



**12**
**MAY**
**2021**

## Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməlqoyma tədbirində iştirak etmişdirlər.

1830-cu ildə Azərbaycanda və Cənubi Qafqazda ilk dünyəvi məktəbin bünövrəsi məhz burada qoyulmuş, 1980-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə bu məktəbin 150 illik yubileyi qeyd olunmuşdur. İşğala qədər 1 saylı məktəb kimi fəaliyyət göstərən bu təhsil ocağı erməni vandalizmi nəticəsində tamamilə dağıdılmışdır.

Yeni 960 şagird yerlik tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Prezidentin ehtiyat fondundan Təhsil Nazirliyinə ilkin olaraq 3 milyon manat vəsait ayrılmışdır.










12
MAY
2021

## Şuşada “Xarıbülbül” festivalının açılış mərasimi

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa “Xarıbülbül” musiqi festivalına ev sahibliyi etmişdir. Qədim mədəniyyət beşiyi olan Şuşa 29 ildən sonra yenə doğmalarını, qonaqlarını qarşılamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mayın 12-də Şuşada Cıdır düzündə təşkil olunan “Xarıbülbül” musiqi festivalınının açılış tədbirində iştirak etmişdirlər.





13
MAY
2021

## Yuxarı Gövhər Ağa məscidində aparılan bərpa-quruculuq işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mayın 13-də Şuşada Yuxarı Gövhər Ağa məscidində aparılan bərpa-quruculuq işləri ilə tanış olmuşdurlar.

1768-1769-cu illərdə inşa edilən Yuxarı Gövhər Ağa məscidi işğal dövründə digər tarixi-dini abidələr kimi erməni vandalizminin qurbanı olmuşdur.

Məsciddə bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir.






**28**
**MAY**
**2021**

## Bərdə-Ağdam avtomobil yolunun təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdama səfəri zamanı Bərdə-Ağdam avtomobil yolunun təməlqoyma mərasimində iştirak etmiş və yeni yolun təməlini qoymuşdur.

Bu layihə Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən işğaldan azad edilmiş ərazilərdə yol infrastrukturunun yenidən qurulması istiqamətində həyata keçirilən genişmiq-yaslı işlərin tərkib hissəsidir.

14 kilometrlik hissəsi Bərdə şəhərindən və bir neçə yaşayış məntəqəsindən keçəcək yolun uzunluğu 44.5 kilometrdir.

Dövlətimizin başçısının tapşırığına əsasən bu avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 4 hərəkət zolaqlı olacaqdır. Avtomobil yolu Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, bu rayonların 20-dən artıq yaşayış məntəqəsini əhatə edəcəkdir.







**28**
**MAY**
**2021**

## Ağdam şəhər meşə-parkında ağac əkmə mərasimi və aparılan işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam şəhər meşə-parkında Azərbaycanın simvollarından biri hesab edilən dağdağan ağaclarının əkilməsi mərasimində iştirak etmişdir. Prezident İlham Əliyev ərazidə Azərbaycanın simvolik ağacı olan dağdağan ağacı əkmişdir.

Ağdam şəhər meşə-parkında şəhər sakinləri və qonaqları üçün 125 hektarlıq böyük meşə parkı salınacaqdır. Bərpa olunacaq Ağdam kanalı şəhərin içindən keçəcək və onun suyu burada yaradılacaq gölə töküləcəkdir.





**28**
**MAY**
**2021**

## Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının təməlqoyma mərasimində iştirak etmişdir.

ABŞ-ın "Gensler", Azərbaycanın "Azərbaycan inkişaf" və Türkiyənin "URAL mühəndislik" şirkətləri binanın layihələndirilməsinə cəlb olunmuşdur. Binanın fasadında Ağdamın yerli ağ daşından və Avropa memarlıq elementlərindən istifadə ediləcəkdir. Mənzillər 1, 2, 3, 4 və 5 otaqlı olacaqdır.





**28 MAY 2021**

## Ağdam Sənaye Parkının təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam Sənaye Parkının təməlqoyma mərasimində iştirak etmiş və Parkın təməlini qoymuşdur.

Sənaye Parkı qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı, tikinti materiallarının satışı bazası hissələrinə bölünəcəkdir. Burada tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların təşkili də planlaşdırılır.

İşğaldan azad olunmuş ərazilərin müqayisəli üstünlükləri əsasında 4 regional mərkəzin yaradılması nəzərdə tutulmuşdur. Ağdamda sənaye mərkəzi, Cəbrayılda logistika və ticarət mərkəzi, Şuşada mədəniyyət və turizm mərkəzi, Kəlbəcərdə hasilat və turizm mərkəzi yaradılacaqdır. Ağdamda yaradılacaq sənaye mərkəzində ilkin müraciətlər əsasında 33 kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri fəaliyyət göstərəcəkdir. Buraya 110 milyon manata yaxın sərmayə qoyulacaq, 330 iş yeri açılacaqdır. Ağdamın strateji coğrafi mövqeyi, digər bölgələrlə qovuşuqda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir.





**28 MAY 2021**

## Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi imarət kompleksinin bərpa-quruculuq işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdama səfəri zamanı Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi imarət kompleksini ziyarət etmiş və görüləcək bərpa-quruculuq işləri ilə tanış olmuşdur.

Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq tikililərindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın imarətidir. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindən olmaqla, iki binadan ibarətdir. Saray Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli yaşayış evi xüsusiyyəti daşımışdır. Bu səbəbdən Pənahəli xanın imarəti adlandırılmışdır. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilmiş, vandalizmə məruz qalmışdır. Buradan tövlə kimi istifadə olunmuşdur.

Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinin canlı şahididir. Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xanın türbələri və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də burada yerləşir.







**28 MAY 2021**

## “Zəfər muzeyi” və açıq hava altında “İşğal muzeyi” layihələri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam şəhərinə səfəri zamanı Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində yaradılacaq Zəfər muzeyi və açıq hava altında İşğal muzeyinin layihələri ilə tanış olmuşdur.

Zəfər və İşğal muzeylər kompleksinin konsepsiyası İtaliya şirkəti tərəfindən hazırlanmışdır.

İşğal muzeyi Dram teatrının yanında yerləşəcək, Dram teatrının qalıqları saxlanılacaqdır. Burada göl yaradılacaqdır. Dram teatrının qapıları, kitabxana, poçt ofisi, otel və balaca dükanın görüntüsü həm gündüz, həm də axşam xüsusi rəqəmsal işıqlandırma vasitəsilə gölün üzərində əks olunacaqdır.

Dağıdılmış digər evlər də memorial bağda saxlanılacaqdır.

Zəfər muzeyi isə digər tərəfdə, Bayraq meydanının yanında yerləşəcək, yaxınlıqda isə Zəfər arenası olacaqdır. Çörək muzeyi burada olacaq, o da bərpa ediləcəkdir.

Muzey dağınıq struktura malikdir. Məqsəd 30 illik işğal dövründə Azərbaycan xalqının keçdiyi çox çətin yolu göstərməkdir. Muzeyin giriş hissəsində çox nəhəng ekranlar quraşdırılacaqdır. Orada işğal dövrünün ağrılı-acılı günləri nümayiş etdiriləcəkdir.Birinci zalda Qarabağın, Ağdamın tarixi faktlarla göstəriləcək, ikinci zalda 360 dərəcəlik rəqəmsal ekranlarda müharibə dövrünün çox ağır günləri, dairəvi zalda Ağdamın dağıdılması, yerlə-yeksan edilməsi göstəriləcəkdir. Dördüncü zal 30 illik dövr ərzində verilən qurbanların xatirəsinin ehtiramla yad edilməsinə həsr olunmuşdur. Nəhayət ən vacibi - beşinci zal isə Xocalı soyqırımından xilas olmaq üçün Ağdama üz tutmuş sakinlərin keçdiyi əzablı yolu əks etdirəcəkdir. Onlara həmin hissləri yaşatmaq üçün otaqda çox soyuq temperatur olacaq ki, insanlar, ziyarətçilər o soyuğu hiss etsinlər. Burada sükunət zalı da olacaq, dağıntılar, evlərin yanması əksini tapacaqdır. Böyük otaq insanlara həmin o hissi yaşatmaq üçün effekt verəcəkdir. Arxiv zalında isə tarixi faktlar əks olunacaqdır.

Zəfər muzeyinin simvolikası Şuşa qalasının qapısını və Qələbə rəmzini təcəssüm etdirəcəkdir.

Zəfər tağı kimi nəzərdə tutulan simvolika ağ və qara fonlarda hazırlanacaqdır. Zəfər muzeyi həm abidə, həm də muzey olacaqdır. Üstündəki tağ Günəşin ardınca hərəkət edəcək, Günəş enerjisi ilə işləyəcəkdir. Bu, o anlama gəlir ki, Zəfərimiz, Qələbəmiz əbədidir. İçərisindəki muzey dəmir və şüşə konstruksiyalardan ibarətdir. Dəmir “Dəmir yumruq” əməliyyatını, şüşə isə bizim müharibənin, bizim Qələbəmizin ədalətli, saf olduğunu təcəssüm etdirir.

Burada bir neçə sərgi zalı da olacaqdır. Giriş zalında nəhəng rəqəmsal ekranlar quraşdırılacaqdır. Ondan sonra bizim pilotsuz uçuş aparatları, ən müasir hərbi texnika, müharibə zamanı istifadə olunan nadir hərbi əməliyyatların taktikası və simulyasiya otaqları nəzərdə tutulur. Ən vacib otaq isə qəhrəman oğullarımızın adı həkk edilmiş divarda sakit axan şəlalə, üstündə qırmızı güllər olacaqdır. Bu, şəhidlərimizin xatirəsini daim yad etmək anlamı daşıyır.

İkinci zaldakı rəqəmsal masalarda isə hər bir əməliyyat barədə geniş məlumat veriləcəkdir. Zəfər arenası amfiteatr şəklində qurulacaqdır. Buradan həm Zəfər muzeyi, həm də Bayraq meydanı görünəcəkdir. Üzərində avtomatik rejimdə açılıb-yığılan dam örtüyü olacaqdır.





**28**
**MAY**
**2021**

## Ağdam şəhər 1 saylı məktəbin yeni binasının təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdama səfəri zamanı Ağdam şəhər 1 saylı məktəbin yeni binasının təməlini qoymuşdur.

Bu məktəb Qarabağ bölgəsinin ən qədim məktəbi hesab olunur. Əsası 1883-cü ildə Əsgər bəy Eyvazov tərəfindən qoyulan Ağdam şəhər 1 saylı məktəbi müxtəlif yerlərdə fəaliyyət göstərmiş və 1904-cü ildə həmin bu binaya, bu əraziyə gəlmiş və 1949-cu ilə kimi burada qalmışdır.

1993-cü ildə erməni işğalı zamanı tamamilə dağıdılmış məktəb ikimərtəbəli bina olmuşdur. Amma təqdim olunan layihədə üçmərtəbəli bina nəzərdə tutulur. Plana uyğun olaraq, inzibati hissə, tədris korpusları, idman meydançası, texniki zona təşkil olunacaqdır.

Məktəb 960 nəfər şagird üçün nəzərdə tutulmuşdur. Eyni zamanda, məktəbdə 18 sinif otağı, 37 fənn kabineti, kimya, fizika, biologiya laboratoriyaları yaradılacaqdır. Məktəbdə təhsil üçün hər cür şərait, bütün texniki imkanlar olacaqdır.








**28**
**MAY**
**2021**

## Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdama səfəri zamanı Ağdam şəhərinin baş planı ilə tanış olmuş və şəhərin bərpasının təməl daşının qoyulması mərasimində iştirak etmişdir.





**28**
**MAY**
**2021**

## Qiyaslı məscidində aparılan bərpa-quruculuq işləri ilə tanışlıq

Qarabağda erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Ağdam rayonunun Qiyaslı kəndində yerləşən məsciddir. XVIII əsrə aid olan bu dini abidə 1993-cü ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən Ağdamın işğalı zamanı pulemyot atəşinə tutularaq yandırılmışdır.

Qiyaslı məscidi 2001-ci ildən yerli əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına götürülmüş, torpaqlarımız işğaldan azad olunduqdan sonra digər tarixi-dini abidələrimiz kimi bərpa işlərinə başlanılmışdır. Hazırda Qiyaslı məscidinin bərpa işləri Heydər Əliyev Fondu tərəfindən davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdama səfəri çərçivəsində Qiyaslı məscidində aparılan bərpa-quruculuq işləri ilə tanış olmuşdur.





**28**
**MAY**
**2021**

## Şahbulaq qalasında aparılan bərpa-quruculuq işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdama səfəri zamanı tarixi Şahbulaq qalasında olmuşdur. Dövlətimizin başçısına abidənin yenidənqurma planı təqdim edilmiş və bərpa-quruculuq işləri barədə məlumat verilmişdir.

XVIII əsrə aid bu qala Qarabağ ərazisindəki ən məşhur abidələrdən biridir. Ağdam şəhərinin 10 kilometrliyində, Şahbulaq kəndi yaxınlığında yerləşən qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa edilmişdir. Elmi ədəbiyyatda "Şahbulaq qəsri" adı ilə tanınan abidə, əslində, iri qəsr kompleksinin iç qalası olmuşdur. Kompleks yaşayış evlərindən, bazar, hamam və məsciddən ibarət idi. Pənahəli xan Şuşa qalasını inşa edənədək Şahbulaq qalası Qarabağ xanlığının inzibati mərkəzi olmuşdur. Ermənilər Ağdamı işğal etdikdən sonra bir sıra abidələrimiz kimi Şahbulaq qalasını da erməniləşdirməyə çalışmış, yaxınlıqdakı məscidi isə kilsə kimi təqdim etmişdirlər.







**14**
**İYUN**
**2021**

## Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iyunun 14-də Füzuli rayonuna səfərləri zamanı Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olmuşdurlar.

Füzuli, Zəngilan və Laçın hava limanlarına uçuşların beynəlxalq standartlara uyğun təmin edilməsi üçün yeni beynəlxalq hava dəhlizlərinin tətbiqi üzrə işlər davam etdirilir.





14
İYUN
2021

## Aşağı Köndələnçay su anbarında həyata keçirilmiş işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 14-də Füzuli rayonuna səfərləri zamanı rayondakı Aşağı Köndələnçay su anbarında həyata keçirilmiş işlərlə tanış olmuşdurlar.

Ümumi tutumu 9,5 milyon kubmetr olan bu su mənbəyi 62 min hektar sahəni suvarmağa imkan verirdi. 1993-cü ildə Füzuli rayonu erməni qəsbkarları tərəfindən işğal edildikdən sonra su anbarının Azərbaycan tərəfindən istismarı qeyri-mümkün olmuşdur. İşğal zamanı torpaqlarımızda ekoloji terror törədən ermənilər təsərrüfat işlərində suya ciddi ehtiyac olduğu mövsümlərdə suyun qarşısını kəsir, daşqınlar zamanı, yaxud suya ehtiyac olmayan vaxtlarda isə anbarlardan suyu buraxaraq ciddi problemlər yaradırdılar.

Prezident İlham Əliyev: "Biz Vətən müharibəsindən sonra həm Suqovuşan su anbarını nəzarətə götürdük, həm də Köndələnçay su anbarı bizim əlimizdədir. Artıq bu anbarların gələcək istismarı ilə bağlı müvafiq göstərişlər verildi."



14 İYUN 2021

## Əhmədbəyli-Füzuli-Şuşa yolunda və Zəfər yolunda görülən işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Əhmədbəyli-Füzuli-Şuşa yolunda və Zəfər yolunda görülən işlərlə tanış olmuşdur.

4 və 6 hərəkət zolaqlarından ibarət Əhmədbəyli-Füzuli-Şuşa yolunun uzunluğu 81 kilometr, Zəfər yolunun uzunluğu isə 101 kilometr olacaqdır. Hər iki yol boyunca tunellər, körpülər inşa ediləcək, bütün zəruri infrastruktur yaradılacaqdır.



14 İYUN 2021

## “Füzuli” yarımstansiyasının açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 14-də yeni tikilən “Füzuli” yarımstansiyasının açılışında iştirak etmişdirlər. Açılış tədbiri zamanı dövlətimizin başçısı “Füzuli” yarımstansiyasını işə salmışdır.

Füzuli şəhərində yeni 110/35/10 kilovoltluq yarımstansiya Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsinə dair tapşırığına uyğun olaraq tikilmişdir. İnşa edilən yeni aeroportun və Şuşa yolunun yaxınlığında yerləşən bu yarımstansiya hava limanı da daxil olmaqla Füzuli şəhəri və ətraf kəndlərdə inşa ediləcək bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcəkdir.

Yarımstansiya, o cümlədən yeni İdarəetmə Mərkəzi ən müasir tələblərə cavab verən avadanlıqla təchiz olunmuş və komplektləşdirilmişdir. İdarəetmə Mərkəzində texniki imkanlarla yanaşı, əməkdaşların səmərəli çalışmaları və istirahəti üçün hərtərəfli şərait yaradılmışdır.

Yarımstansiyanın işinə real vaxt rejimində nəzarət olunması və göstəricilərin “Azərenerji” ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulmuşdur.





14
İYUN
2021

## “Şükürbəyli” yarımstansiyasının açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də yenidən qurulan 110/35/10 kilovoltluq “Şükürbəyli” yarımstansiyasının məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsilə açılışını etmişdir.

İşğaldan azad edilən ərazilərin böyük hissəsinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması üçün “Şükürbəyli” yarımstansiyası genişləndirilərək tam yenidən qurulmuşdur. Bu məqsədlə yarımstansiyanın gücü artırılmaqla yanaşı, 110 kilovoltluq açıq paylayıcı qurğu sökülərək daha müasir formada yenidən tikilmişdir. Burada yeni avadanlıqla komplektləşdirilmiş mühafizə və avtomatika sistemləri ilə təchiz edilən İdarəetmə Mərkəzi yaradılmış və lokal mikro-SCADA sistemi qurularaq yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılmışdır.

“Şükürbəyli” yarımstansiyasına İmişli yarımstansiyasından 51 kilometr məsafədə 110 kilovoltluq xətt çəkilmişdir. Eyni zamanda, “Şükürbəyli” yarımstansiyasından Şuşaya 75 kilometrlik ikidövrəli 110 kilovoltluq xətt çəkilmiş və həmin xətt Füzuli şəhərində yeni tikilən 110 kilovoltluq yarımstansiya ilə əlaqələndirilmişdir. Paralel olaraq hazırda “Şükürbəyli” yarımstansiyasından Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında yeni tikilən 110/35/10 kilovoltluq yarımstansiyalara ikidövrəli 110 kilovoltluq yüksək gərginlikli elektrik veriliş xətti çəkilmişdir.







14
İYUN
2021

## Zəfər yolu üzərində inşa edilən körpüdə görülən işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Zəfər yolunun Xocavənd rayonundan keçən hissəsində inşa edilən körpüdə görülən işlərlə tanış olmuşdur.

Quruçay üzərində inşa olunan üçaşırımlı körpünün uzunluğu 86 metr olacaqdır. İşğaldan azad edilən ərazilərimizdə görülən bütün bərpa və yenidənqurma işləri kimi, burada da tikinti yüksək sürətlə aparılır və yol istismara verilənədək bu körpü də hazır olacaqdır.







**14**
**İYUN**
**2021**

## Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda inşa olunacaq tunelin təməlinin qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Daşaltı kəndinin ərazisindən keçən hissəsində inşa olunacaq tunelin təməlini qoymuşdur.

Burada ümumilikdə iki tunel tikiləcək və onların hər biri ikizolaqlı olacaqdır. Tunellərin hər birinin uzunluğu 530 metr, eni isə 12 metr olacaqdır.





**15 İYUN 2021**

## Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya rəsmi səfəri və Şuşa Bəyannaməsinin imzalanması

İyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşa şəhərində rəsmi səfərdə olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı Füzuli rayonunda qarşıladıqdan sonra dövlət başçıları Şuşa şəhərinə yola düşmüşdürlər.

Şuşada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olmuş, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüş, Türkiyə Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndirilmişdir.

Rəsmi qarşılanma mərasimindən sonra Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan arasında təkbətək görüş keçirilmişdir. Təkbətək görüşdən sonra Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsini” imzalamışdırlar.

Şuşa şəhərinə səfər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanım Əminə Ərdoğan Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəllərini ziyarət etmiş, “Xan qızı” bulağında olmuşdurlar.







**15 İYUN 2021**

## "Baykar" şirkətinin baş direktoruna "Qarabağ" ordeninin təqdim edilməsi

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyunun 15-də Şuşa şəhərinə səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin təmin olunması istiqamətindəki haqq işinə verdiyi töhfəyə görə "Baykar" şirkətinin baş direktoru Lütfü Haluk Bayraktara "Qarabağ" ordeni təqdim etmişdir.






15
İYUN
2021

## “Musiqi irsi və Qarabağ atları Cıdır düzündə” adlı musiqili kompozisiya

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə iyunun 15-də Şuşada “Musiqi irsi və Qarabağ atları Cıdır düzündə” adlı musiqili kompozisiya təqdim edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanım Əminə Ərdoğan musiqili kompozisiyaya baxmışdırlar.

Musiqili kompozisiyada Azərbaycan Atçılıq Federasiyasının təqdim etdiyi Qarabağ atlarının möhtəşəm çıxışının müşayiətilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının, F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının, Azərbaycan Dövlət Rəqs ansamblının, “Mirvari” rəqs ansamblının və Bakı Xoreoqrafiya Akademiyasının tələbələrinin rəqsləri, “Natiq” ritm qrupunun ifaları təqdim olunmuşdur. Proqramda Azərbaycanın və Türkiyənin xalq və bəstəkar mahnıları səsləndirilmişdir.

Tədbir zamanı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana ən qədim at cinslərindən olan “Zəfər” adlı Qarabağ atı və “Xarıbülbül” kompozisiyası hədiyyə edilmişdir. “Xarıbülbül” kompozisiyasındakı Qarabağın rəmzi sayılan iki xarıbülbül gülü birləşərək Azərbaycan ilə Türkiyə arasındakı əbədi dostluq və qardaşlıq münasibətlərini təcəssüm etdirir.

Şuşada təşkil olunan tədbirin qonaqlarına Heydər Əliyev Fondunun “Qarabağın mədəni irsi” adlı nəşrlər toplusu hədiyyə edilmişdir. Topluya ədəbiyyat, musiqi, memarlıq sahələrini, xalq sənətkarlığını və xalçaçılıq sənətini əks etdirən ayrı-ayrı nəşrlər daxildir.